# Gəncədə Zəfər Forumu





**Oktyabrın 7-dən etibarən Biləsuvarda start götürən Zəfər Forumunun növbəti ünvanı Gəncə şəhəri olub.**

Gəncə, Mingəçevir, Yevlax, Naftalan şəhərlərini, Kəlbəcər, Göygöl, Samux, Daşkəsən, Goranboy və Xocalı rayonlarını təmsil edən şəhid ailələrinin, mübaribə iştirakçılarının, ictimaiyyət və dövlət qurumları nümayəndələrinin iştirakı ilə təşkil olunan tədbir Gəncə Dövlət Filarmoniyasında keçirilib.

Qonaqlar əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, Şəhidlər xiyabanını ziyarət ediblər.

Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbaninin aparıcısı olduğu forum, Dövlət Himninin səsləndirilməsi və Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Çıxış edənlər müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun düşmən üzərində qazandığı parlaq qələbədən, Vətən müharibəsində Azərbaycan oğullarının göstərdiyi şücaətlərdən danışıblar. Qeyd olunub ki, Zəfər Forumunun Gəncə şəhərində keçirilməsi təsadüfi deyil. Çünki bu qədim şəhər 44 günlük Vətən müharibəsi zamanı erməni təcavüzkarlarının xaincəsinə törətdikləri terrorlara qarşı sarsılmaz dözüm və qəhrəmanlıq nümayiş etdirib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Ermənistanın Gəncədə törətdiyi terror aktı zamanı paylaşdığı sözlər xatırladılıb: “Gəncə Azərbaycanın döyünən ürəyidir və heç kəs heç vaxt onun sakinlərinin məğrur ruhunu sındıra bilməz!”.

Bildirilib ki, zəfər forumları bütün ölkəni əhatə edəcək, qazandığımız qələbə haqqında yerlərdə insanların, xüsusilə gənc nəslin daha dolğun məlumatlanmasına şərait yaradılacaq. Haqqın şanlı zəfərinə möhür vurmaq hər xalqa, hər dövlətə, hər prezidentə nəsib olmur.

Daha sonra forumda Milli Qəhrəman valideynlərinin, şəhid ailələrinin və müharibə iştirakçılarının çıxışları dinlənilib.

Tədbirdə hərbi vətənpərvərlik tərbiyəsini təcəssüm etdirən musiqi nömrələri ifa olunub, səhnələr nümayiş etdirilib.

Sonda tədbir iştirakçıları adından Azərbaycan Prezidenti İlham Əliyevə müraciət qəbul olunub.

**Hamlet QASIMOV,**
**“Xalq qəzeti”nin bölgə müxbiri**

Xalq qəzeti .- 2022.- 20 oktyabr.- S.12.